II Qarabağ müharibəsi başlayan gündən təhsil işçiləri də könüllü olaraq döyüşə qatıldılar. Şanlı qələbənin qazanılmasına onlar da öz töhfələrini vermişlər. Bu müharibədə 700-dək təhsil işçisi böyük qəhrəmanlıqla döyüşüb. Müharibə zamanı 20 nəfər təhsil işçisi şəhid olub.

Vətən müharibəsində şəhid olmuş təhsil işçiləri

Sentyabrın 27-də torpaqlarımızın azadlığı uğrunda başlayan haqq döyüşümüzdə şanlı qələbəni istər ön cəbhədəki, istərsə də arxa cəbhədəki cəsurlar hesabına əldə etdik. Qəhrəmanlıq, şəhidlik zirvəsini fəth edənlər sırasına təhsil ictimaiyyəti üzvlərinin də adı yazıldı.

Karyerasına müəllim kimi başlayıb, ehtiyatda olan zabit kimi davam edən və sinifdən səngərə uzanan yolunu şəhadətilə taclandıran qəhrəman müəllim Famil Əhmədzadə əvvəllər təkcə İsmayıllı rayonunda savadlı müəllim kimi tanınırdı. İndi isə onu bütün Azərbaycan tanıyır. O, azərbaycanlılar üçün tarix yazan tarix müəllimlərimizdən idi.

Famil Əhmədzadə 1997-ci ildə Dövlət İdarəçilik Akademiyasını fərqlənmə diplomu ilə bitirib. Elə o vaxtdan İsmayıllı rayon E.Məmmədov adına 3 nömrəli məktəb-liseydə tarix müəllimi işləyirdi. Fəaliyyətinin ilk günlərindən şagirdlərinin və müəllim kollektivinin rəğbətini qazanmış, qısa zamanda rayonun tanınmış simasına çevrilmişdi. Rayon tədbirlərini çox vaxt o idarə edirdi. 2020-ci ildə Vətən müharibəsi başlayanda ehtiyatda olan baş leytenantın da müraciəti dəyərləndirilib və Famil Əhmədzadə döyüşlərə cəlb edilib. Azərbaycan Ordusunun minlərlə könüllü döyüşçüsündən biri olaraq cəbhəyə yollanıb və orada da öz sözünü deyib. Oktyabr ayının 14-də Talış və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalmışdır.

Ağstafa rayon 1 nömrəli tam orta məktəbin direktoru Elvin İmaməliyevin də adı qələbədə payı olan müqəddəs şəhidlər sırasındadır. O, 1989-cu il mayın 9-da Ağstafa rayon Qırılı kəndində ziyalı ailəsində dünyaya gəlmişdi. Orta təhsilini Qırılı kəndində bitirdikdən sonra Azərbaycan Dillər Universitetinin xarici dil müəllimliyi (fransız dili) ixtisası üzrə təhsil almışdı. 2012-ci ildə müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edərək, elə doğulduğu kəndin məktəbində müəllim kimi fəaliyyətə başlamışdı. 2019-cu ildə direktorların işə qəbulu üzrə müsabiqədə iştirak etmiş və yüksək bal toplayaraq Ağstafa şəhəri 1 nömrəli tam orta məktəbə direktor təyin edilmişdi. Nümunəvi məktəb direktorlarından biri olub, Elvin müəllim. O, 2020-ci il iyul ayında baş verən Tovuz döyüşləri zamanı könüllü olaraq orduya yazılıbmış. Sentyabr ayında müharibə başlayanda isə ön cəbhəyə yollanıb. Şuşa şəhərinin azadlığı uğrunda döyüşlərdə qəhrəmanlıqla vuruşub, şəhərin azadlığa qovuşmasının sevincini yaşayıb. Təəssüflər olsun ki, qələbəmizə cəmi 1 gün qalmış – noyabrın 9-da Şuşa şəhəri yaxınlığında, Qırmızı bazar qəsəbəsində ağır yaralanaraq şəhid olub.

Şahidlər yazırlar ki, Elvin İmaməliyev Bayraq Günü ilə bağlı tədbirin sonunda çıxışı zamanı ən böyük arzularından birinin də bayrağımızın Şuşada dalğalanacağı günü görmək olduğunu deyibmiş. Onda heç özünün də ağlına gəlməzdi ki, Şuşanın azadlığa qovuşmasında onun da payı olacaq. Əfsuslar olsun, qələbə xəbərini özü şagirdlərinə, məktəb kollektivinə çatdıra bilmədi. Bu gün Ağstafa şəhəri 1 nömrəli tam orta məktəbin müəllim, şagird kollektivinin qürur yeri, fəxridir. Məktəbin tarixində Elvin müəllimin adı əbədi yaşayacaq və böyük ehtiramla yad ediləcək.

Lerik rayon Sors kənd ümumi orta məktəbinin tarix müəllimi Elgün Quliyev də döyüşlərə qatılan, müharibənin bitməsinə saatlar qalmış şəhid olan müəllim idi. Anasının yeganə oğlu, 3 bacının bir qardaşı Elgün də ötən il müəllim adı qazanmışdı. İlk dəfə sinfə girəcəkdi. Müəllimlərin işə qəbulu müsabiqəsinin test imtahanı mərhələsində topladığı 52 balla Lerik rayon Sors kənd ümumi orta məktəbində dərs demək hüququ əldə etmişdi. Şagirdlərinə tarixdə qalanlardan danışacaqdı. Ancaq özü tarixə çevrildi. Müasir tariximizin şanlı səhifələrindən birini də məhz o yazdı. Müharibənin bitməsinə saatlar qalanda şəhid olan soydaşlarımızdan biri oldu.

Gəncə şəhər Mikayıl Müşfiq adına 14 nömrəli tam orta məktəbin müəllimi Rabil İsmayılov da torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib və qəhrəmancasına şəhid olub. Vətən müharibəsində fədakarlıqla iştirak edən döyüşçü-müəllim 2017-ci ildə müəllimlərin işə qəbulu imtahanlarında 55 bal toplayaraq işə qəbul olunmuşdu. O, istedadlı olmaqla yanaşı, həm də sözün həqiqi mənasında yaxşı müəllim olub. Dərsdə heç vaxt oturmur, ya partaların arasında, ya da əlində təbaşirlə lövhənin önündə olurmuş. Məktəbin qalib olduğu qrant layihəsinin müəllifi də məhz R.İsmayılov olub.

Torpaqlarımız uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərən və şəhidlik zirvəsinə ucalan müəllimlərdən biri də Qoşqar Ömərovdur. O, Kürdəmirdə doğulmuşdu, Abşeron rayonunun Masazır kəndindəki ən müasir məktəblərdən birində, 5 nömrəli tam orta məktəbdə şagirdlərinə hesablama elmini öyrənməkdə bələdçilik edirdi. Sentyabrın 27-nə qədər o, şagirdlərinin gözündə müəllim idi. Amma artıq, yəni Şuşanın Daşaltı kəndi uğrunda gedən döyüşlərdə şəhid olandan sonra bir qəhrəmandır. 44 günlük Vətən müharibəsinin son günlərinə qədər döyüşdü. Noyabrın 5-də şəhidlik zirvəsinə yüksələnədək davam edən ömrü qısa olsa da, amacı böyük olan döyüş yolunu da məharətlə 26 illik ömrünə sığdırdı.

Lənkəran şəhər A.Məhərrəmov adına 7 nömrəli tam orta məktəbin müəllimi Emil Qurbanov Qubadlı uğrunda gedən döyüşlərdə 5 güllə yarası alaraq şəhidlik zirvəsinə ucalıb. Emil müəllim Lənkəran şəhər 7 nömrəli tam orta məktəbdə gənclərin çağırışaqədər hərbi hazırlığı müəllimi, təlim-tərbiyə işləri üzrə direktor müavini idi. Hərbi xidmətdən sonra bir müddət hərbçi kimi fəaliyyətini davam etdirib taqım komandiri olmuşdu. Ancaq sonradan ailəsini yanına apara bilmədiyindən özü hərbi hissədə fəaliyyətini dayandıraraq rayona, ailəsinin yanına qayıdıb. Həm məzunu olduğu 7 nömrəli tam orta məktəbdə gənclərin çağırışaqədər hərbi hazırlıq müəllimi, həm də "Zirvə" İdman Kompleksində məşqçi kimi işə başlayıb. 2006-cı ildən etibarən yetişdirdiyi idmançılarla böyük uğurlara imza atıb.

Rəvan Lətifov isə Vətən müharibəsi başlayanda Oğuzdakı Sincan kənd tam orta məktəbində təşkilatçı-müavin olub. Sentyabrın 29-da Vətən müharibəsində iştirak etmək üçün çağırış vərəqəsi alıb və məktəbi döyüş meydanı ilə əvəz edib. Döyüş yolu Şuşaya qədər gedib çıxdı. Şuşa uğrunda gedən döyüşlərdə iştirak etdi və qəhrəmancasına şəhid oldu. Şəhadət xəbərini ailəsi noyabrın 16-da alıb və o, Xaçmaz kəndindəki Şəhidlər xiyabanında dəfn edilib.

Gəncənin qürur mənbəyi olan şəhidlərindən biri də Rəşad Məmmədovdur. Həyat yolunu seçərkən silah yox, qələm götürməyə üstünlük vermişdi. Qələmlə ondan əvvəl yazılmış tarixi yaşatmaq, anlatmaq, gələcək nəslə ötürməyi hədəfləmişdi. Sadəcə müəllim olmaq istəmişdi. Bu istəklə də orta məktəbi bitirib ali məktəbə – Gəncə Dövlət Universitetinə daxil olmuşdu. Sonra daha yaxşı müəllim olmaq istədi. Bu həvəslə həmin universitetdə magistratura təhsili aldı. İnsan yetişdirmək, insanın şəxsiyyətə çevrilməsi prosesində fəal rol oynamaq idi niyyəti. Hazırlaşıb müəllimlərin işə qəbulu üzrə müsabiqəyə qatıldı və 2018-ci ildə 51 bal toplayaraq yaxşı müəllim olacağına dair bir şübhə yeri qoymadı. Gəncə şəhəri M.Ş.Vazeh adına 16 nömrəli tam orta məktəbi seçdi. Çox keçmədi ki, məktəbin sevimli tarix müəllimi oldu. Onun müəllimlik ömrü 2 il – Azərbaycan Ordusunun Qarabağda əks-hücum əməliyyatlarının başladığı günədək sürdü. Əməliyyatların başlanması ilə əli qələmli Rəşad müəllim dönüb oldu əli silahlı əsgər. Tarixin səhvini qələmlə düzəldə bilməyəcəyini anladı hər halda. Əlindəki qələmlə son 30 illik tarixin üstündən qara bir xətt çəkib silahla yeni tarix yazmağa qərar verdi. Canından çox sevdiyi Vətəni, torpağı uğrunda gedən döyüşlərdə şücaət göstərdi. Vətənin azadlığı uğrunda gedən döyüşlərin birində də qəhrəmancasına həlak oldu.

Şəhid müəllim Vidadi İsrafilov Daşkəsənin Gurbulaq kəndində doğulub, böyüymüş, Gəncə Dövlət Universitetinin riyaziyyat-informatika fakültəsini bitirmişdi. Riyaziyyat müəllimi kimi fəaliyyət göstərib. Vidadi müəllim onu qorumaq, ərazi bütövlüyünü təmin etmək üçün canından keçəcək qədər çox sevdi torpağını. Vətən müharibəsi başlayan kimi riyaziyyat müəllimi Vidadi İsrafilov hərbi komissarlığa müraciət edərək sentyabrın 29-da "öncə Vətən" deyib arxasında qoyduğu 5 və 6 yaşında olan iki övladını ata-anasına həvalə edərək döyüşlərə yollandı. Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etdi. Döyüşə-döyüşə Şuşaya qədər gedib çıxmışdı. Müharibənin bitməsinə bir neçə saat qalmış ağır yaralanan Vidadi İsrafilov qəhrəmancasına şəhid olub.

Təhsil naziri Emin Əmrullayev deyir ki, Azərbaycan müəllimi Vətən müharibəsindən üzüağ, başıuca çıxdı: "Həm özü şəhidlik zirvəsinə ucaldı, həm də yetişdirdiyi Vətən övladları bu adı ucalara qaldırdı. Düşmənə dərs verən müəllimlərimizi ehtiramla anırıq. Xalqımızın böyük qələbəsində Azərbaycan təhsil işçilərinin də rolu böyükdür. Bu çox vacib məqamdır. Çünki hər bir insanın müəllimi var. O cümlədən də, bu döyüşlərdə iştirak edən, bu qələbədə rolu olan hər bir insanın və müəllimlərimizin. Döyüşlərə qatılan və vətən uğrunda canından keçən müəllimlərimizə Allahdan rəhmət diləyirəm".

Famil Əhmədzadə

Elvin İmaməliyev

Elgün Quliyev

Emil Qurbanov

Qoşqar Ömərov

Rabil İsmayılov

Rəşad Məmmədov

Rəvan Lətifov

Vidadi İsrafilov

Hazırladı:
M.MÜKƏRRƏMOĞLU,
"Xalq qəzeti"